İSSN-0207-4710
GÖYƏRÇİN
5-6
2019

Rafiq Yusifoğlu

# YADDAŞ KİTABI

*Tarixi günlər haqqında şeirlər (1)*



«Göyərçin»in kitabxanası «Göyərçin»in kitabxanası «Göyərçin»in kitabxanası «Göyərçin»in kitabxanası

ISSN-0207-4710
GÖYƏRÇİN
5-6
2019



Tariximizin hər səhifəsi bizim üçün əzizdir.

***

Tarixi olduğu kimi qəbul etmək,
dərk etmək və olduğu kimi
qiymətləndirmək lazımdır.

***

Tariximiz bizim üçün dərs olmalıdır.

***

Tarix heç nəyi silmir.

*Heydər Əliyev*

*Əziz balalar! Yəqin ki, «Böyük arzuya gedən yol», «Günlərimiz, aylarımız» kitablarını xatırlayırsınız. Müəllimlərin, kitabxana işçilərinin, eləcə də sizin arzu və istəklərinizi nəzərə alıb əsərin üstündə yenidən işlədik, onu təkmilləşdirməyə çalışdıq. Beləliklə, bu kitab yarandı. İnanırıq ki, ilin əlamətdar günlərinə həsr olunan şeirlər xoşunuza gələcək, onların həsr olunduğu tarixi günləri heç zaman unutmayacaqsınız. Əslində bu kitab şeir kitabından çox poetik yaddaş kitabıdır.*

*Arzu və təkliflərinizi bizə göndərməyi unutmayın.*

*Qəlbi təmiz olanların*
*Sözünü Haqq eşidir.*
*Ulu Tanrı, yar ol bizə,*
*İşimiz haqq işidir…*



№ 5-6 (671-672)

Redaksiyanın ünvanı:
Bakı- AZ1073,
Mətbuat prospekti,
529- cu məhəllə.
Telefon: 539 08 53

Çapa imzalanıb: 05.04.19
Sifariş: 1154
Tiraj: 1000
Kağız formatı: 60\90\1\8
Çap vərəqi: 2,5
Hesab-nəşr vərəqi: 3,93

Rafiq Yusifoğlu

# YADDAŞ KİTABI

*Tarixi günlər haqqında şeirlər (1)*



«Göyərçin»in kitabxanası

Bakı 2019

## ALLAHIM

Allahım, sən olmusan
Əzəldən pənahımız.
Pərən-pərən düşmüşük,
Nə idi günahımız?

Qaçqınların harayı
Göylərə bülənd olub.
Müqəddəs yurd yerimiz
Kafirlərə kənd olub.

Qudurub qəvi düşmən,
Bizə yar ol, Yaradan!
Anaların qəlbini
Sağalt dərddən, yaradan.

Yetmir köməyimizə
Daha səbr, hövsələ.
Allahım, yurdumuzu
Bəlalardan hifz elə...

## ORUCLUQ BAYRAMI

On bir ayın soltanı
Ramazanım xoş gəlib.
Gözəl günlər yaşamaq
Bəxtimizə tuş gəlib.

Ulu Tanrım, çin olsun
Arzumuz, niyyətimiz!
Bizi xoşbəxt eləsin
Ülvi məhəbbətimiz!

Kim ki Sənin yolunda
Oruc tutub, şad olur.
O adam xoşbəxtdi ki,
Nəfsindən azad olur.

Qəlbimizdəki sevgi
Sel tək kükrəyir, daşır.
Gözü tox olan kəslər
Tanrıya yaxınlaşır.

Insana yaraşarmı
Tamahına qul olsun?
Qəlbi saf olanların
Orucu qəbul olsun!

## QURBAN BAYRAMI

Allah yolunda xərclə
Dövlətini, malını.
Ürəyindəki iman
Nurlandırar yolunu.

Mərhəmətlidi Tanrım,
Günahlardan keçəndi.
O, yaxşıları pisdən
Arayandı, seçəndi.

Əsirgəmə malını,
Qəlbində xoş əməl tut.
Sən acları doyuzdur,
Imkansızlara əl tut.

Yaradan qəlbimizə
İlahi nur ələsin!
Verdiyimiz qurbanı
Allah qəbul eləsin!





## 1 YANVAR - TƏZƏ İLİN İLK GÜNÜ

### TƏZƏ İL

*Musiqisi Cavanşir Quliyevindir*

Təzə il, ay təzə il,
Gəlməyəsən gözə,il.
Uğurlu qədəminlə
Ömrümüzü bəzə, il.

Kaman gətir, saz gətir,
Şirin bir avaz gətir.
Dön zəfərlər ilinə,
Ürəklərə yaz gətir.

Tez gəl, bizi sevindir,
Yolu, izi sevindir.
Doğmaları gözləyən
Dağı, düzü sevindir.

Üzlərə işıq gətir,
Gözlərə işıq gətir.
Kül altında uyuyan
Közlərə işıq gətir.

Sevincdən əsir dilim,
Xoş gördük, təzə ilim!
Gəlişinlə yurdumdan
Dərd itsin ilim-ilim.

Yaxamı külək açsın,
Qədəmin ürək açsın.
Sevənlərin qəlbində
Arzular çiçək açsın...

## 20 YANVAR - ŞƏHİDLƏR GÜNÜ

### ŞƏHİDLƏR XİYABANI

Şəhidlər xiyabanı -
Müqəddəs and yerimiz.
Mərmər daşlara hopub
Bayatımız, şeirimiz.

Bizə güllə dəyəndə
Bu torpaq yaralanıb.
Onun sinəsi üstdə
Məzarlar sıralanıb.

Mərdləri qorxutmayıb
Namərdlərin gülləsi.
Hər qəbir - azadlığa
Gedən yolun pilləsi...

Əlimizdə qərənfil,
Dilimizdə haqq sözü.
Bu günahsız millətə
Kömək olsun haqq özü!

Hər baş daşı çevrilib,
Şərəf, qeyrət büstünə.
Bir güllə qoyulubdur
Hər məzarın üstünə.

Igid oğullarımız
Cərgə ilə keçirlər.
Məzarların önündə
Diz çöküb, and içirlər.

Gülləleri götürüb,
Döyüşlərə gedirlər.
Günahsız qurbanların
Ruhunu şad edirlər.

Şəhid məzarlarından
Gedən odlu güllələr,
Düşmənlərin başına
Alov saçar, kül ələr.

Geri dönər Xocalı,
Geri qayıdar Şuşa.
Şəhid ruhu şad olar,
Dönər bir qızıl quşa.

Qarabağ torpağının
Üstündə uçar, uçar.
Hamımızın qəlbində
Arzular çiçək açar...



## 2 FEVRAL - GƏNCLƏR GÜNÜ

# GƏNCLİK

Ömrün çiçəkli
Bağıdı gənclik.
Həyatın gözəl
Çağıdı gənclik.

Gənclik bənzəyir
Kükrəyən selə.
Gənclər dayaqdı
Vətənə, elə.

Qəlbi sevgiylə,
Eşqlə doludur.
Gənclik vətənin
Vuran qoludur.

Açmayan gülü
Dərmək olarmı?
Gəncliyi yelə
Vermək olarmı?

Qəlbində sevgi
Çağlayan kəsi,
Nə top qorxudur,
Nə qılınc kəsir.

Odur qoruyan
Yurdumu yaddan.
Gənclik illəri
Çıxarmı yaddan?!



## 2 FEVRAL - SU, BATLAQ GÜNÜ

# SU

Möcüzələr yaradır
Həyatda hər damla su.
Çiçək olub açılır
Yağışın hər damlası.

Bir həyat çeşməsidir
Çaylar, göllər, bulaqlar.
Su olmasa neyləyər
Balinalar, balıqlar?

Su olmasa, quruyar
Kollar, güllər, ağaclar.
Gün altında qovrular
Çiçəklənən yamaclar.

Gün altında bərq vurur
Şehlə dolu lalələr.
Yurduma yaraşıqdır
Çağlayan şəlalələr.

Susuz qəribsəyərdi
Meşələr, dağlar, düzlər.
Dünyamıza bəzəkdir
Okeanlar, dənizlər…

## 8 FEVRAL - AZƏRBAYCANIN İLK PEYKİNİN ORBİTƏ BURAXILDIĞI GÜN

# BİZİM PEYKİMİZ

Şükürlər olsun
Bizim peykimiz,
Yerdən göylərə
Uçdu ley kimi.

Ucadan baxır
Vətənimizə.
Odur tanıdan
Vətəni bizə.

Vətənimizin
Görən gözüdü.
Ocağımızın
Qaynar közüdü.

Ulduzlu göydə
Quş tək səkir o.
Torpağımıza
Keşik çəkir o.

Ona çatmazsan
Təyyarələrlə.
Qonşuluq edir
Səyyarələrlə.

O, bizim üçün
Şərəfdir, şandır.
Göylərdə uçan
Azərbaycandır.

Sanma ki, adi
Kiçik ulduzdu.
O, göyə qalxan
Yumruğumuzdu.








## 11 Fevral - VERGİ İŞÇİLƏRİ GÜNÜ

# VERGİ VƏ BÜDCƏ

-Vergilərdən gələn pul
Yaradır büdcəmizi.
Sonra da il uzunu
Yaşadır büdcə bizi.

Elin xəzinəsindən
Bəhrələnmir de, kimlər? -
Alimlər, mühəndislər,
Müəllimlər, həkimlər…

-Büdcə nədir, ay baba?
-Yenilməz qüdrətdir o.
Xalqın xəzinəsinə
Toplanan sərvətdir o.

Vergiylə ölkəmizin
Artır gücü, qüdrəti.
Qoymayaq ki, tükənsin
Yurdumuzun sərvəti.

Xərcləyirik o pulu
Yaratmağa, qurmağa.
Doğma vətənimizin
Keşiyində durmağa.

Damcılar birləşəndə
Bir qüdrətli sel olar.
Atalar söyləyib ki,
Dama-dama göl olar…

## 22 FEVRAL - AVTOMOBİL YOLU İŞÇİLƏRİ GÜNÜ

# YOLÇƏKƏNƏM, YOLÇƏKƏN

Yurdumuzun yolları
Gözəlləşir günbəgün.
Ən ucqar kəndlərin də
Bəxtinə doğulub gün.

Xeyir-bərəkətlidi,
Elləri yol saxlayır. -
Şəhərləri, kəndləri
Bir-birinə bağlayır.

Yol olmasa neyləyər
Bu qədər avtomobil?
Yol həyatdı, yollarsız
Yaşamaq mümkün deyil.

Yolçəkənəm, yolçəkən,
Işimdən zövq alıram.
Daşları parçalayıb,
Dağlara yol salıram.

Həmişə tapdansa da,
Yol dillənmir, yol susur.
Yollar yola gətirir
Neçə-neçə yolsuzu.

Yaradanın, quranın
Öyünməyə haqqı var.
Qabarlı əllərimə
Heykəldi hamar yollar…

Elə bil ki, bir çaydı,
Elə bil ki, axır o.
Körpülərdən adlayıb,
Zirvələrə qalxır o.



## 21 FEVRAL - BEYNƏLXALQ ANA DİLİ GÜNÜ

# ANA DİLİ

Ana dili, ana dili,
Hikmət dili, mənə dili!
Hər ləhcəsi, şivəsi bal,
Dinlə onu, xəyala dal.
O dil ana kimi əziz,
Hər kəlməsi şəffaf, təmiz!
O, sel kimi axa bilir,
Şimşək kimi çaxa bilir.
Qürbət eldə vətəndir o,
Köməyimə yetəndir o.
Birləşdirən bizi odur,
Ocağımın közü odur!
Bu dil nəfəsim, canımdır,
Bütöv Azərbaycanımdır.
Bu dil solmayan çiçəkdir,
Keçmiş, indi, gələcəkdir.
Ana dili varsa əgər,
Bizimlədir hər an zəfər…






## 26 FEVRAL - XOCALI SOYQIRIMI GÜNÜ

### XOCALI ŞƏHİDLƏRİNƏ

Biz ürcah olduq çaqqala,
Düşsək də bəbir izinə.
Bəsdir bu dərdə dözdüyün,
Namərdin tüpür üzünə!

Neçə-neçə kəndim yanıb,
Düşmən marıqda dayanıb.
Odlu bir nifrət oyanıb
Qəlbimdə səbir sözünə.

Köksümüzdən vurulmuşuq,
El içində xar olmuşuq,
Biz ölmüşük, qırılmışıq,
Həsrətik qəbir üzünə…

Qan ağlayan nəmli gözlər
Nə qədər yerə baxacaq?
Allah, mənim ürəyimdən
Bu tikan nə vaxt çıxacaq?

Qələm titrəyir əlimdə,
Göynəyir bağrımın başı.
Qaldırmağa oğul gərək
Kirpikdən asılan daşı.

Hər papaqlı layiq deyil
Kişi adı daşımağa!
Biz almasaq bu qisası,
Haqqımız yox yaşamağa!...

### XOCALI

Qarlı qış günü
Bax dəstə-dəstə,
Tanklar yeridi
Şəhərin üstə.

Göydən yağış tək
Güllə ələndi,
Bəmbəyaz düzlər
Qana bələndi.

Durduq ölümlə
Nəfəs-nəfəsə,
Aman vermədi
Düşmən heç kəsə:

Nə qədər ömrə
Nöqtə qoydular,
Bu körpələrə
Necə qıydılar?

Qan çanağına
Döndü Xocalı,
Tonqal tək yanıb
Söndü Xocalı.

Bir gözəl şəhər
Çevrildi külə,
Axdı gözlərdən
Yaş gilə-gilə…

Bu ağrılara
Mən necə dözüm?
Yarəb, hər şeyi
Görürsən özün!

Rəhm etmədilər
Gəlinə, qıza,
Qaniçənlərə
Özün ver cəza!

Bu qədər qəddar
Olarmı insan?
Yerdə qalmasın
Tökülən bu qan!

Gendən baxanda
Bilinməz bu dağ.
Ürəyimizdən
Silinməz bu dağ!



## 2 MART - AZƏRBAYCAN RESPUBLİKASININ BMT-NİN ÜZVLÜYÜNƏ QƏBUL EDİLDİYİ GÜN




### ÖLKƏLƏR ARASINDA

Qovuşdum azadlığa,
Yandı tale ulduzum.
Dəyişdi başdan-başa
Yurdumuzun görkəmi.
Bayraqlar arasında
Dalğalanır bayrağım,
Ölkələr arasında
Öz yeri var ölkəmin…

## 5 MART - BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN GÜNÜ

### AZƏRBAYCAN İDMANI

**Bizim idmançılara
Hamı ümid bəsləyir.
Vətən eşqi onları
Zəfərlərə səsləyir.**

**Azərbaycan övladı
Pələng kimi yarışır.
Azərbaycan oğluna
Qalibiyyət yaraşır.**

**Biləyində el gücü,
Ürəyində fərəhdi.
Sağlam yaşamaq üçün
Bizə idman gərəkdi.**

**Igidlərimiz varsa,
Sönərmi çırağımız?
Dünyanın hər yerindən
Gəlir xoş sorağımız.**

**Qəlbimizi titrədir
Qalibiyyət nidası.
Zəfər marşına dönür
Himnimizin sədası.**

**Uzaq ellərdən gəlir
Yurdumuzun sorağı.
Zirvələrə ucalır
Azərbaycan bayrağı…**



## 8 MART - BEYNƏLXALQ QADINLAR GÜNÜ



### MƏNİM ANAM

Hər gülün öz təravəti,
Hər çiçəyin öz ətri var.
Mənim mehriban anamın
Nəfəsində yaz ətri var.

O güləndə qəlbim gülür,
Artır yaşamaq həvəsim.
Gəz dünyanı qarış-qarış,
Anamın yoxdur əvəzi.

Ürəyi safdır, təmizdir,
Bulaq kimi durudur o.
Evimizin yaraşığı,
Gözümüzün nurudur o.

O bizə layla çalanda
Adamın yuxusu gəlir.
Ana əli dəyən yerdən
Gül-çiçək qoxusu gəlir.

Yanaqları elə bil ki,
Təzə açılan çiçəkdi.
Anam hamıdan gözəldi,
Anam hamıdan qəşəngdi...



## 21 MART - BEYNƏLXALQ POEZİYA GÜNÜ

### ŞAİR OYUNCAĞI

Hər kəsin olur
Öz oyuncağı.
Şair uşaqdı,
Söz oyuncağı.

Sözlə ev tikir,
Sözlə yol çəkir.
Kağızın üstdə
Söz ağac əkir.

Sözdən düzəldib
Durna qatarı,
Uçan quşları
Geri qaytarır.

Üşüyənlərə
Söz ocaq olur.
Susuzlayana
Söz bulaq olur.

Söz közə dönüb
Qəlbi isidir.
Şairlər sözün
Pərvanəsidir.

Yazıb-yaradır,
Yoruldum demir.
O, bir maqnitdi,
Hər söz bir dəmir.

Qələm budaqdı,
Ona söz qonur.
Gözəl fikirlər
Geyir söz donu.

Gözünə baxsa,
İlahi gözlər,
Onun qəlbində
Sayrışar sözlər.

Dediyi kəlmə
Gözü yaşardır.
Şairi onun
Sözü yaşadır...



## 21 MART – NOVRUZ BAYRAMI

### NOVRUZUM

Novruzum, ay novruzum,
Gəl ərit qarı, buzu.
Çiçəklənsin ağaclar,
Yaşıllaşsın yamaclar.
Bir nəlbəki səməni,
Xatırlatsın çəməni.
Şamlarımız yansın gur,
Hər yana ələnsin nur.
Gözəlləşsin meşələr,
Açılsın bənövşələr.
Çölləri tutsun ətir,
Xeyir-bərəkət gətir!





## 23 MART - SİNOPTİKLƏR GÜNÜ (HİDROMETROLOJİ PROQNOZLAR GÜNÜ)

### HAVA NECƏ OLACAQ

Sinoptiklər əvvəldən
Xəbərdar edir bizi:
-Sabah yağış yağacaq,
Tutqundur göyün üzü.

Yoxsa biz nə bilərdik
Hava necə olacaq?
Uçuşan buludların
Gözü nə vaxt dolacaq?

Əvvəldən bilərdikmi
Qar yağacaq, ya dolu?
Leysanmı ələnəcək,
Selmi basacaq yolu?

Göydəki buludların
Gözündə gilə varmı?
Hansı külək əsəcək,
Xəzrimi, gilavarmı?

Hava necə olacaq? -
Soyuqmu, ya bürkümü?
Nazik paltar geyinim,
Yoxsa qalın kürkümü?

Güllər solar, buludlar
Boşalmasa, dolmasa.
Yəqin çaşbaş qalardıq
Sinoptiklər olmasa.

Əvvəldən biliriksə
Yağış olacaq, quraq,
Gərək işlərimizi
Havaya uyğun quraq...

## 31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ

### SOYQIRIM

Düşmən deyib düşmənə,
Bu milləti qoy qırım!
Bizdən olmayanlara
Çox yaraşır soyqırım.

Ciyərini parçala,
Gözlərini oy türkün!
Nəsli-kökü kəsilsin
Yer üzündən qoy türkün.

Analara göz yaşı
Içirməkdən zövq alıb.
Körpələri nizəyə
Keçirməkdən zövq alıb.

Unudub qəvi düşmən,
Türklərə gülmək olmaz.
Tarixdən xalqımızın
Adını silmək olmaz.

Türkün bayrağı uca,
Türkün qılıncı iti.
Heç kəs məhv edə bilməz
Belə qadir milləti.

Bizim tək qəlbi yuxa
Xalq yoxdu yer üzündə.
Dönməz əqidəsindən,
Türk bütövdü sözündə.

Bizə dost olanların
Başına tac qoyarıq.
Bizə xor baxanların
Gözlərini oyarıq.

Heç vaxt qoymarıq sola
Biz azadlıq gülünü.
Göylərə sovrarıq
Düşmənlərin külünü...







## 2 APREL - BEYNƏLXALQ UŞAQ ƏDƏBİYYATI GÜNÜ

### NAĞIL ÇƏMƏNZARI

Bu gün «Qar kraliça»nı
Yazan Andersen doğulub.
Yəqin xoşunuza gəlib
Sizin «Düymacik» nağılı?

«Vəhşi qu quşları» necə?
Bəs «Çirkin ördək balası»? -
«Əkdiyi» sənət gülləri
Heç zaman deyil solası.

Onun nağıl çəmənzarı
Həmişə ətir qoxuyur.
Yazdıqları əsərləri
Bütün uşaqlar oxuyur.

Ömrü nağıl olan insan
Nağıl yazmaqdan doymayıb.
Ancaq heç vaxt uşaqları
Uşaq yerinə qoymayıb.

Onu bu qədər ucaldan
Qəlbindəki məhəbbətdi.
Uşaqları sevindirmək
Xoşbəxtlikdi, səadətdi…

## 2 APREL - KƏLBƏCƏRİN İŞĞALI GÜNÜ

### MUROVUM

Murovum, Murovum,
Bir ovun, bir ovun!
Yaxınkən uzaqsan,
Ancaq üzü ağsan.
Qalıbmı görəsən
Qoynunda izimiz?

Sənə üz tutmağa
Gələrmi üzümüz?
Murovum, Murovum,
Bir ovun, bir ovun!
Çəkirsən hər gün ah,
Bizdəmi hər günah?!





## 22 APREL - BEYNƏLXALQ YER GÜNÜ

### YER KÜRƏMİZ

Biz insanıq, dünyanın
Baharıyıq, yazıyıq.
Bircə vətənimiz var:
Yer oğlu, Yer qızıyıq.

Öz qoynunda hamıya
Yer verib Yer kürəmiz.
Gülüstana dönər o,
Bir gül əksək hərəmiz.

Sudu, ağacdı, otdu,
Havadı, torpaqdı o.
Anamız kainatda
Bir yaşıl yarpaqdı o.

Əgər istəmiriksə
Ağac kimi quruyaq,
Gərək göz bəbəyi tək
Təbiəti qoruyaq…





## 29 APREL - BEYNƏLXALQ RƏQS GÜNÜ

### RƏQS, RƏQS

Dövrə vurun, uşaqlar,
Düzülün qatar-qatar.
Dinir kaman, dinir tar,
Qarmona nə oldu bəs?
Rəqs, rəqs…

Elə oynayır Nağı,
Görünmür əl-ayağı,
Üz-gözündən tər axır.
Ay Vüqar, sən də tələs,
Rəqs, rəqs…

Dostlar, durmayın gendə,
Şənlik edək bu gün də.
Qoşul hamıya sən də,
Nə dayanmısan, Əvəz? -
Rəqs, rəqs…

Piano çalır Gülər,
Hamının üzü gülər.
Dilimizdə nəğmələr,
Qəlbimizdə min həvəs,
Rəqs, rəqs…



## 3 MAY - BEYNƏLXALQ SÖZ AZADLIĞI GÜNÜ

### SÖZ AZADLIĞI

Dünyada hər bir kəsin
Vardır öz azadlığı.
İnsan üçün vacibdir
Fikir, söz azadlığı.

Əsl sözdə şirinlik,
Əsl sözdə dad olur.
Özü azad olanın
Sözü də azad olur.

İnsanın insan kimi
Yaşamağa haqqı var.
İnsanın düşünməyə -
Daşınmağa haqqı var.

Söz azaddır, ancaq sən
Düşünməmiş danışma!
Kəlmələri başında
Bişirməmiş danışma!

Bilmədiyin sözləri
Soruşanda fikirləş.
Düşünəndə azadsan,
Danışanda fikirləş!

İnsan bələddir sözün
Xalisinə, qəlpinə.
Elə danış, kimsənin
Toxunmasın qəlbinə…

## 3 MAY - TÜRK DÜNYASININ HƏMRƏYLİK GÜNÜ

### TÜRK ELLƏRİ

Havamız, suyumuz bir,
Yasımız, toyumuz bir.
Biz doğmaca qardaşıq,
Əslimiz, soyumuz bir.

Haşa düşmən şərindən!
Köks ötürmə dərindən.
Türk türkü dayaq olsa,
Dağ oynayar yerindən.

Ömrümüz, günümüz bir,
Səsimiz, ünümüz bir.
Bizi ayırmaq olmaz,
Dilimiz, dinimiz bir.

Birləşsə türk əlləri,
Birləşsə türk elləri,
Bizə neyləyə bilər
Zamanın sərt yelləri?

## 8 MAY - ŞUŞANIN İŞĞAL GÜNÜ

### OCAQLARI SÖNƏN YURDUM

Nə çox idi heyrətindən
Bəxtəvərə dönən burda.
Od alardı çiçəklərdən,
Alışardı sönən burda.

Gözəlliyə əl açmışdım,
Qəlbdə arzu gül açmışdı.
Xarıbülbül gül açmışdı,
Xoşbəxt idim dünən burda.

Uydum namərdin birinə,
Dərdim kök atdı dərinə.
Tarın, kamanın yerinə
Mərmilərdi dinən burda.

Analar qara bağlasın,
Şuşanı Tanrı saxlasın!
Bir cüt göz gərək ağlasın
Ocaqları sönən yurda…



## 8 MAY - ÜMUMDÜNYA QIZIL XAÇ VƏ QIZIL AYPARA GÜNÜ

### HARDA Kİ...



Dar ayaqda qayğıya
Möhtacdır cavan, qoca.
Yol verin Ayparaya,
Yol verin Qızıl xaça.

Insan özgə dərdinə
Lağ edib gülməyibdir.
Qəlbdə ki mərhəmət var,
Insanlıq ölməyibdir.

Əlsizə, ayaqsıza,
Yaralıya yardım et!
Obasından, elindən
Aralıya yardım et!

Harda ki, Qızıl xaç var,
Demək dərdə əlac var.
Harda ki, Aypara var,
Deməkdərdə çarə var...



## 9 MAY - FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏ GÜNÜ

### QƏLƏBƏ BAYRAĞI

Baxanda
Reyxstaqın üstündəki
Yellənən al bayrağa,
Düşünürəm:
İki səgər əlinin
gücü çatmazdı
onu qaldırmağa.
Milyonların ürəyi kimi
döyünür,
Milyonların qanından
su içib.
İyirmi milyon məzar
Körpü olub,
Bu bayrağın yolu
O körpünün
Üstündən keçib...

## 10 MAY - GÜL BAYRAMI

### GÜL BAYRAMI



Həmişə gözəlləşdirib,
rövnəqləndirib
gül bayramı.
Bu gün isə
gül bayramıdı,
gül bayramı...
Çaşıb qalmışıq hamımız
Bu çiçəkli çöllərə
nə bağışlayaq?
Bayramı olana
gül verirlər,
Bəs güllərə
nə bağışlayaq?!









## 10 MAY - HEYDƏR ƏLİYEVİN DOĞUM GÜNÜ

### HEYDƏR BABA



Heydər baba, xalqımın
Ağsaqqalı, rəhbəri.
Zəkasından nur alıb
Yurdumuzun səhəri.

Heydər baba, xalqımın
Ümid yeri, pənahı.
Gözlərindən boylanıb
Yurdumuzun sabahı.

Əməliylə, işiylə
Yadları çaşbaş salıb.
Elə bil düşmənlərin
Başına bir daş salıb.

İnanıb həqiqətə,
Haqq məğlub ola bilməz.
Belə öndəri olan
Xalq məğlub ola bilməz...

Xalqıma xor baxanın
Sinəsinə dağ çəkib.
Düşmən onun önündə
Təslim olub, diz çöküb.





## 15 MAY - BEYNƏLXALQ AİLƏ GÜNÜ

### AİLƏ



Adam doğmalarla bir
Yaşamağı xoşlayır.
Bu dünya insan üçün
Ailədən başlayır.

Ailə doğmaların
Isindiyi ocaqdı.
Babam deyir ki, evin
Yaraşığı uşaqdı.

Bəxtəvərəm, bəxtəvər,
Bacım var, qardaşım var.
Evimizdə nə qədər
Dostum var, sirdaşım var...

Babam hikmət çeşməsi,
Nənəm nağıl bulağı.
Anam evin bəzəyi,
Atam evin dayağı.

Gərək batırmayasan
Ailənin adını.
Doğmalara verəsən
Ürəyinin odunu.

Hər an saxlamalıyıq
Biz haqqın tərəfini.
Hər an qorumalıyıq
Ailə şərəfini.

Dara düşsən doğmalar
Köməyinə yetəndi.
Ailə insan üçün
Bir balaca vətəndi...

Dünyada mənim üçün
Bir sehrli aləm var.
Bəxtəvərəm, bəxtəvər,
Evim var, ailəm var...



## 18 MAY - LAÇININ İŞĞALI GÜNÜ



### LAÇINIM

Niyə düşdü gözlərimiz işıqdan?
Yaxşı kimi ayrı düşdük Aşıqdan.
Sənsiz anam, bacım yolar saçını,
Ulu yurdum, qibləgahım, Laçınım…

Yurdum yağı pəncəsində əsirdi,
Qəlbim dözür bu hicrana, nə sirdi?
Nə durmuşuq, gözləyirik haçanı?
Bəs kim xilas eləyəcək Laçını?

Torpağında bircə dam-daş qalmadı,
Həkərinin gözündə yaş qalmadı, -
Selə dönüb minnətinə qaçanım,
Dağ döşündə qəribsəyən Laçınım.

Yol gözləyir Yaxşı Sarı Aşıqla,
Səni görsəm, könlüm dolar işıqla,
Şəfəq kimi qəlbimə nur saçanım,
Ulu yurdum, qibləgahım, Laçınım…

Ayrı oba deyil mənim gərəyim,
Həsrətindən çat-çat olan ürəyim
Sənə doğru uçum-uçum uçunur,
Laçınım! Laçınım! Laçınım!



## 18 MAY - BEYNƏLXALQ MUZEYLƏR GÜNÜ

### MUZEYLƏR

Muzeylər ən dəyərli
Xəzinəyə oxşayır.
Orda tarix uyuyur,
Orda tarix yaşayır…

Orda babalarımın
Nəfəsi, ruhu vardır.
Hər kiçik eksponat
Keçmişdən yadigardır.

İnsan yaratdığını
İnsan qorusun gərək.
Keçmişinə qıyanın
Əli qurusun gərək.

Muzeylərə sığınıb
Ən qiymətli incilər.
Onlara baxan zaman
Ürəyimiz incələr.

Başdan-başa möcüzə
Dünyasıdır muzeylər.
Keçdiyimiz yolların
Aynasıdır muzeylər.

Muzeylər - var-dövləti
Tükənməyən xəzinə.
Qapıları açıqdı
Gələnlərin üzünə.

Hər bir əsər bənzəyir
Bir solmayan çiçəyə.
Keçmiş muzeyə girib,
Yol gedir gələcəyə…















## 19 MAY - ATATÜRKÜN ANIM GÜNÜ

### ATATÜRK

İllər, əsrlər boyu
Baş əymədi yada türk.
Mərd olmasaydı, onu
Salardımı yada türk?
Azadlıq savaşında
Düşdü min yol oda türk.
Zəfərlər çalmaq üçün
Gəldi bu həyata türk.
Çapdı Şərqdən Qərbəcən

Süvar olub ata türk…
Babaların yolunu
Əziz tutdu Atatürk.
Gördü yaxşı-yamanı,
Qovdu çəni, dumanı.
Qoyardımı zamanın
Girdabında bata türk,
Atatürk?!

Dərd tüstü, gözlər baca,
Arzu çox, yollar haça.
Dedi: - Gərək ən uca
Zirvələrə çata türk,
Atatürk.
Önə verdi döşünü,
Gördü elin işini,
Azadlıq günəşini
Qoyardımı bata türk,
Atatürk?!




## 28 MAY - AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASININ YARANMASI GÜNÜ

### 28 MAY

Yurdumun adı yazılıb
Ölkələrin sırasında.
Aylar, günlər arasında
Əziz günüm, ayım mənim,
28 Mayım mənim!

Tarix necə keşməkeşli,
Azadlığın yolu uzun…
Səkkiz guşəli ulduzum,
Şəfəq saçan ayım mənim,
28 Mayım mənim!

Bayrağımın kölgəsində
Çiçək açdı dağım, daşım.
Bəxtiyar payızım, qışım,
Yazım mənim, yayım mənim,
28 Mayım mənim!

Nə ətirli çiçək imiş
Babalarımın dərdiyi?!
Ulu Tanrının verdiyi
Müstəqillik payım mənim,
28 Mayım mənim!

### ƏBƏDİ BAHAR

İyirmi səkkizi maya
Çox yaraşır toy-düyün.
Əbədi bahar gəlib
Yurdumuza həmin gün…

Doğma diyarı xoşbəxt
Görmək necə də xoşdu!
Azadlıq çiçəyini
Dərmək necə də xoşdu.

Həmin gün qəlbimizdə
Neçə arzu dil açıb.
Təkcə dağda, düzdə yox,
Qəlbimizdə gül açıb…

İgid oğullar, qızlar
Olub elə havadar.
Üçrəngli bayrağımız
Dalğalanır havada.

Səslənən himnimizdə
Sanki sel gücü vardır.
Çiçəklənən yurdumuz
O gündən yadigardır…




## 31 MAY - SON ZƏNG GÜNÜ

## SONUNCU ZƏNG



***

Dağa-daşa salsın sizi hər fikir,
Ürəkdə ayrılıq nidası qalsın.
Vurun, elə vurun o son zəngi ki,
Hər vaxt qulağımda sədası qalsın!

Şirin xatirələr düzülsün səfə,
Məktəbin seyrinə çıxaq yenidən.
Qoyun dərsə girək sonuncu dəfə,
Qənimət götürək son kəlməni də.

Müəllim önündə hər vaxt əyil ki,
Onsuz keçən ömür boranlı qışdı.
Ay dost, axı bu zəng son zəng deyil ki,
Qurub yaratmağa ilk çağırışdı...

***

Həyat bir sehrli dəniz,
Hərəniz bir adasınız.
Son zəng elə bil cümlədi,
Siz sonunda nidasınız.
On il bundan əvvəl gələn
Bir sehrli sədasınız.
Bu gün sevdalı insanlar,
Sabah ana-atasınız.
Arzulardan arzu doğur,
Arzulara çatasınız.
Əzizlərim, siz hər yaşın
Sevincini dadasınız...

## 1 İYUN - UŞAQLARIN BEYNƏLXALQ MÜDAFİƏ GÜNÜ

## UŞAQ

Cocuq - sevginin bəhrəsi,
Cocuq - həyatın duzudu.
Cocuq - yolumuz üstündə
Parlayan dan ulduzudu...

Ömrümüzü, günümüzü
Uşaq təbəssümü bəzər.
Uşaqsız ev, uşaqsız el
Susuz dəyirmana bənzər...

Cocuq - sevginin bəhrəsi,
Cocuq - həyatın duzudu.
Cocuq - yolumuz üstündə
Parlayan dan ulduzudu...

Ömrümüzü, günümüzü
Uşaq təbəssümü bəzər.
Uşaqsız ev, uşaqsız el
Susuz dəyirmana bənzər...





## 2 İYUN - MÜLKİ AVİASİYA İŞÇİLƏRİ GÜNÜ



## AZƏRBAYCAN TƏYYARƏSİ

İndi öz təyyarəçim,
İndi öz limanım var...
Ölkələr fəth etməyə
İmanım, gümanım var...

Elə bil göy gurlayır,
Elə bil şimşək çaxır.
Əliyev limanından
Təyyarəm göyə qalxır.

Sanki onu görəndə
Fərəhlənir göylər də.
Üçrəngli bayrağımız
Şəfəq saçır göylərdə.

Heç bilirsiniz nədir
Mənim könlümü açan?
Adi təyyarə deyil,
Azərbaycandır uçan.

Ona baxanda qəlbim
Tir-tir əsir, nədəndi? -
Çünki qərib göylərdə
O, bir parça vətəndi...

## 16 İYUN - BEYNƏLXALQ ATALAR GÜNÜ

## ATALAR



Ata olmasa əgər
Övlad ömrü başlamaz.
Atanı sevməyəni
Ulu Tanrı xoşlamaz.

Ata - ömrün mayası,
Ata - güvənc yerimiz.
Ata evi - müqəddəs
Ocağımız, pirimiz.

Ulu Allahın yerdə
Kölgəsidi atalar.
Ataya xor baxanı
Alovlara atalar!

Qəlbində sevgi yoxsa,
Biləyində güc olmaz.
Ata gözündən düşən
El gözündə ucalmaz...

Heç bilirsiniz nədir
Mənim könlümü açan?
Adi təyyarə deyil,
Azərbaycandır uçan.

Ona baxanda qəlbim
Tir-tir əsir, nədəndi? -
Çünki qərib göylərdə
O, bir parça vətəndi...

Qiymət 1 manat

# MÜNDƏRİCAT











ALLAHIM....4
ORUCLUQ BAYRAMI....4
QURBAN BAYRAMI....4
TƏZƏ İL....5
ŞƏHİDLƏR XİYABANI....5
GƏNCLİK....6
SU....6
BİZİM PEYKİMİZ....6
VERGİ VƏ BÜDCƏ....7
YOLÇƏKƏNƏM, YOLÇƏKƏN....7
ANA DİLİ....7
XOCALI ŞƏHİDLƏRİNƏ....8
XOCALI....8
ÖLKƏLƏR ARASINDA....9
AZƏRBAYCAN İDMANI....9
MƏNİM ANAM....10
NOVRUZUM....10
ŞAİR OYUNCAĞI....10
HAVA NECƏ OLACAQ....11
SOYQIRIM....11
NAĞIL ÇƏMƏNZARI....12
MUROVUM....12
YER KÜRƏMİZ....12
RƏQS, RƏQS....13
SÖZ AZADLIĞI....13
TÜRK ELLƏRİ....13
OCAQLARI SÖNƏN YURDUM....13
HARDA Kİ....14
QƏLƏBƏ BAYRAĞI....14
GÜL BAYRAMI....14
HEYDƏR BABA....15
AİLƏ....15
LAÇINIM....16
MUZEYLƏR....16
ATATÜRK....17
28 MAY....17
ƏBƏDİ BAHAR....17
SONUNCU ZƏNG....18
UŞAQ....18
AZƏRBAYCAN TƏYYARƏSİ....19
ATALAR....19